# II BÖLMƏ.
# SOSİAL-İQTİSADİ PROBLEMLƏR

UOT 338.24

*Səbinə Həbib qızı BAYRAMOVA*
*AMEA-nın İqtisadiyyat İnstitutunun*
*“Post-konflikt Ərazilərin Bərpası Elmi Mərkəzi”nin*
*kiçik elmi işçisi*

## MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİNİN DÖVLƏT TƏRƏFİNDƏN YAXŞILAŞDIRILMASININ HÜQUQİ VƏ TƏŞKİLATİ ƏSASLARI

*Xülasə*

**Tədqiqatın məqsədi-** Məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin inkişafında dövlətin rolunun öyrənilməsindən ibarətdir. Məqalədə 30 il ərzində öz doğma torpaqlarından didərgin düşmüş məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin və məşğulluğunun artırılması məsələləri araşdırılıb. Sözügedən istiqamətdə dövlətin həyata keçirdiyi siyasət, görülən işlər və əldə olunmuş nəticələr təhlil olunub.

**Tədqiqatın metodologiyası-** Tədqiqat işində təhlil, müşahidə və təsviretmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti-** Bu illər ərzində qaçqınların və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, onların iqtisadi və sosial problemlərinin daha səmərəli həll edilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi.

**Tədqiqatın nəticələri-** Məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində görülən işlərin dövlət siyasətində necə əhəmiyyətli olması ilə əlaqədardır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi-** Məqalədə məcburi köçkünlərin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına təsir edən amillərin müəyyənləşdirilməsidir.

***Açar sözlər: məcburi köçkün,məşğulluq,sosial vəziyyət,dövlət proqramı.***

### *Giriş*

Azərbaycan bu gün dünyada adambaşına düşən məcburi köçkünlərin sayının ən çox olduğu ölkələr siyahısındadır. Məcburi köçkünlərin çətin problemlərlə qarşı-qarşıya qalmasına baxmayaraq, müstəqillik dövründə ölkəmizdə bu istiqamətdə böyük uğurlara nail olunmuş, bu sahədə problemlərin həlli istiqamətində bundan sonra da lazımi tədbirlər həyata keçirilməkdədir.

Məlum olduğu kimi, məcburi köçkün problemi özünün qloballığı və ciddi yanaşma tələb etməsi ilə səciyyələnir. Bir çox böyük dövlətlərdə sözügedən məsələyə laqeyd yanaşmanın və ikili standartların mövcudluğu problemin daha da dərinləşməsinə zəmin yaradır.

Azərbaycan məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində geniş imkanlara malik nümunə ölkələr sırasındadır. Belə ki, Ermənistan - Azərbaycan münaqişəsi nəticəsində öz doğma yurdlarından məcburi köçkün düşmüş soydaşlarımızın müvəqqəti məskunlaşdıqları yerlərdə bütün sosial qayğılarla əhatə olunması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı siyasi kursun prioritet istiqamətlərindən hesab olunur. Bu istiqamətdə görülən işlərə nəzər salaraq qeyd edə bilərik ki, məcburi köçkünlərin sosial problemlərinin həlli ilə əlaqədar olaraq cənab Prezident tərəfindən 2004 - 2019-cu illər ərzində 75 fərman və sərəncam,Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 224 qərar və sərəncam, Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən isə 11 qanun qəbul edilmişdir.

Məcburi köçkünlərin həyat şəraitinin yüksəldilməsi ilə bağlı Azərbaycanda həm dövlət büdcəsi, həm Azərbaycan Respublikası Dövlət Neft Fondundan ayrılan subsidiyalar, həm də digər

maliyyə mənbələri hesabına mühüm layihə və proqramlar həyata keçirilir.Ölkəmiz məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində də böyük uğurların müəllifi kimi çıxış edir. Ermənistanın ölkəmizə etdiyi təcavüz nəticəsində doğma yerlərini tərk etmək məcburiyyətində qalan insanların dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin konkret nəticəsi olaraq həyat səviyyəsinin yüksəldilməsi, xüsusən də mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqaməti üzrə həyata keçirilən işlərin miqyası son illər daha da geniş vüsət almışdır. Azərbaycanın iqtisadi cəhətdən getdikcə qüdrətli dövlətə çevrilməsi, əhalinin maddi rifah halının mütəmadi qaydada yüksəlməsi məcburi köçkünlərin də yaşayış şəraitinin yaxşılaşması ilə müşayiət olunmuş, onların sosial problemlərinin kompleks həlli üçün geniş imkanlar yaratmışdır.

Azərbaycanın məcburi köçkünlərin sosial məsələlərlə bağlı problemlərinin həll olunması ilə əlaqədar fəaliyyəti iki istiqamət üzrə davam etmişdir. Birincisi, Qarabağ problemi həll olunanadək məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, ikincisi - torpaqlarımızı işğaldan azad etdikdən sonra “Böyük Qayıdış”ın başlanmasıdır. 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbə Azərbaycan xalqının öz torpaqlarının işğal olunması ilə barışmazlığının bariz nümunəsinə çevrildi. Ermənistan tərəfinin daim atəş altında saxladığı Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, eləcə də Tərtər rayonunun Şıxarx qəsəbəsi, ətraf yüksəkliklərin Azərbaycan ordusunun nəzarətinə keçməsi ilə təhlükədən azad edildi və beləliklə,öz yurd-yuvalarından illər öncə didərgin düşmüş köçkünlərimizin bu torpaqlara Böyük Qayıdışının təməl daşları atıldı. 44 günlük Vətən müharibəsinin qələbə ilə başa çatdırılması, təcavüzkar Ermənistanın işğalına son qoyulması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi nəticəsində məcburi köçkünlərin öz yurdlarına qayıtması, dövlət başçısının tapşırıqları əsasında, onların könüllü, ləyaqətli və təhlükəsiz qayıdışının təmin olunması üçün bütün zəruri tədbirlər həyata keçirilir.

**Qarşıda duran əsas vəzifələr və yeni hədəflər**

Sosial siyasət iqtisadi inkişaf baxımından cəmiyyətin həyatında önəmli rola malikdir. İqtisadi inkişafın səviyyəsi artdıqca vətəndaşlar üçün əlverişli sosial şərait yaranaraq sosial müdafiəsi güclənir, digər tərəfdən isə əhalinin sosial vəziyyəti yaxşılaşdıqca onların əmək məhsuldarlığı da artmağa başlayır.

Qeyd etmək lazımdır ki, Ümummilli lider Heydər Əliyev xalqın çağırışı ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra o dövlərdə ölkəmizin qarşısında duran problemlərin həllinə nail olmağı, dövləti böhranlı durumdan çıxarmağı bacarmışdır. Heydər Əliyev Azərbaycanın BMT müstəvisində həyata keçirdiyi siyasətin strateji və taktiki tərəflərini dəqiq şəkildə müəyyən edərək, Qarabağın Azərbaycana mənsubluğunun “BMT və ATƏT arasında əməkdaşlıq” qətnaməsində öz əksini tapmasına nail olmuşdur. Digər tərəfdən, bu əməkdaşlığın ikinci istiqaməti üzrə isə Ermənistanın təcavüzü nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş 1 milyondan çox Azərbaycan vətəndaşının ağır şəraitini yüngülləşdirmək üçün BMT İnkişaf Proqramı, Qaçqınlar üzrə Ali Komissarlıq, Ümumdünya Ərzaq Proqramı, YUNİSEF və başqa təşkilatlar çərçivəsində humanitar yardımlar alınmışdır. Bu gün Heydər Əliyevin əsasını qoyduğu bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva məcburi köçkünlərin sağlamlıq, yaşayış və təhsil problemlərinin həllinə xüsusi diqqət göstərməklə yanaşı, bu istiqamətdə mühüm işlər görür. Məlum olduğu kimi, ölkənin Birinci vitse-prezidenti mütamadi olaraq şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, onların ailələri ilə görüşür, bu insanların problemlərini dinləyir və yerindəcə həllinə nail olmağa çalışır. Bu gün torpaqları azadlıqda olan keçmiş qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində Azərbaycan dövləti tərəfindən görülən bütün işlərdə Mehriban xanım Əliyevanın əməyi və diqqəti müstəsna yer tutur [1].

2004-cü il 1 iyul tarixində “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” qəbul edilmişdir.

Bu proqramın təsdiq edilməsi haqqında Sərəncamda məcburi köçkünlərin vəziyyətinin çox acınacaqlı olması vurğulanır. Belə ki, bu sərəncamın giriş hissəsində qeyd olunur ki, məcburi köçkünlərin əksəriyyəti görülən işlərə baxmayaraq, hələ də yaşayış üçün yararlı olmayan ictimai və

tikintisi yarımçıq qalmış binalarda və müvəqqəti yaşayış yerlərində çox ağır şəraitdə yaşayırlar.Bu yaşayış tərzləri ilə bir çox sosial problemlərlə qarşı-qarşıya qalırlar. Bu sərəncamın qəbul edilməsində ən vacib məqsəd ölkəmizin işğal altında olan əraziləri azad edilənə və didərgin düşmüş şəxslər öz yurdlarına qayıdana qədər dəmiryolu üzərindəki yük vaqonlarında, düşərgələrdə soydaşlarımızın mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin yaradılmasını və digər müxtəlif sosial problemlərin həllini həyata keçirməkdən ibarət idi. [2]

Həyata keçirilmə baxımından qarışıq və çətin olsa da, bir sıra dövlətlər öz məcburi köçkün qanunlarını və siyasətlərini uğurla həyata keçirmişlər.

İllər üzrə bəzi ölkələrdə mövcud olan qanunvericilik bazasını, eləcə də bu istiqamətdə həyata keçirilən siyasəti cədvəl 1-dən daha aydın görmək olar [3, s.10-15].

***Cədvəl 1.***

| Dövlət | İl | Hüquq/ Siyasət |
|---|---|---|
| Əfqanıstan | 2005 | Məcburi Köçkünlərin Milli Planı |
| | 2013 | Məcburi Köçkünlərə dair Milli Siyasət |
| Kolumbiya | 1997 | Daxili yerdəyişmə haqqında 387 saylı qanun |
| Gürcüstan | 1996 | Məcburi köçkünlər və təqib olunan şəxslər haqqında qanun |
| | 2006 | Gürcüstanın Məcburi Köçkünlər haqqında qanunu |
| | 2007 | Münaqişə qurbanlarının əmlakının bərpası və kompensasiyası haqqında qanun |
| | 2007 | Məcburi Köçkünlər üzrə Dövlət Strategiyasının təsdiq edilməsi haqqında 47 saylı Fərman |
| | 2014 | Gürcüstanın işğal olunmuş ərazilərindən məcburi köçkünlər haqqında Gürcüstan qanunu |
| Şri-Lanka | 2002 | Yardım, Reabilitasiya və Barışıq üzrə Milli Çərçivə |
| | 2007 | 2007-ci il Köçürmə İdarəsi Aktı |
| | 2013 | Köçürmə Siyasəti üçün Çərçivə |
| | 2016 | Münaqişədən Təsirlənmiş Köçkünlük üçün Davamlı Həllər üzrə Milli Siyasət |
| Ukrayna | 2014 | 509-cu Qətnamə |
| | 2015 | Məcburi köçkünlərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Ukrayna Qanunu |
| İraq | 2008 | Köçkünlük üzrə Milli Siyasət |
| İndoneziya | 2001 | İndoneziyada Məcburi Köçkünlərin İdarə Edilməsi üzrə Milli Siyasətlər |
| | 2007 | Fəlakətlərin idarə edilməsi haqqında qanun |
| | 2012 | Sosial münaqişənin həlli haqqında qanun |

1993-2018-ci illər ərzində hökumət məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı reallaşdırılan layihə və proqramlara 3,4 milyard manatdan artıq vəsait xərcləmişdir. Bu vəsaitin davamı olaraq 2,3 milyard manat Azərbaycan Respublikası Dövlət Neft Fondu,1,4 milyard manat isə beynəlxalq təşkilatlar xərcləmişdir. Qeyd etdiyimiz vəsaitlər sayəsində məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması, məişət problemlərinin həll olunması, çadır şəhərciklərinin ləğv edilməsi və onların hər cür infrastruktura malik yeni salınmış qəsəbələrdəki mənzillərlə təmin edilməsi reallaşdırılmışdır.

Məcburi köçkünlər üçün salınan yaşayış komplekslərinin yeri əvvəllər çox baxımsız sahələr olmuşdur. Bu ərazilərdə yaşamaq üçün demək olar ki, heç bir sosial infrastruktur mövcud olmayıb. 2018-ci ildə bu ərazilərin birində “Qobu Park-1”, 2017-ci ildə isə “Qobu Park-2” yaşayış kompleksləri istifadəyə verilib. Birinci yaşayış kompleksində 1026 ailəlik doqquzmərtəbəli 11 yaşayış binası, ikinci yaşayış kompleksində isə 1300 ailəlik onmərtəbəli 13 bina inşa olunub. Bu komplekslərin ərazisində məktəblər, uşaq bağçaları, poliklinika, tibb, poçt məntəqələri, idman zalları

və digər zəruri sosial infrastruktur obyektləri yaradılıb. “Qobu Park-3” yaşayış kompleksində onmərtəbəli 13 yaşayış binası inşa olunub.[4]

Məcburi köçkünlərin sosial həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı proqramlarla yanaşı, onların məşğulluğunun artırılması ilə əlaqədar önəmli layihələr reallaşdırılmaqdadır. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı tətbiq edilən dövlət proqramlarında məcburi köçkünlərin iş yerləri ilə təmini, onların yaşadıqları ərazilərdə yeni müəssisələrin yaradılması, istehsal imkanlarının artırılmasına dair tədbirlər planı nəzərdə tutulmuşdur. Belə ki,bu layihələrin həyata keçirilməsi məcburi köçkünlərin məşğulluğunun artması ilə yanaşı,onların sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə səbəb olmuşdur. [5]

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu məcburi köçkün soydaşlarımızın həm sosial,həm də iqtisadi vəziyyətinin yaxşılaşdırılması məsələlərinin əsas iştirakçısı kimi çıxış edir.Bu fond bu istiqamətdə olan bütün layihələrin həyata keçirilməsinə nəzarət edir, müəyyən tenderlərin və başqa müvafiq prosedurların aparılmasını təmin edir, eyni əsas işlərin icrasını təşkil edir.

2020-ci ilin dekabr ayının 30-da bu layihə istiqamətində tədbirlərin maliyyələşdirilməsi üçün Fonddan ümumi olaraq 2 702,7 milyon manat, həmçinin il ərzində 200 milyon manat vəsait ayrılmışdır.

Məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması üzrə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və bərpa edilməsi davam etdirilir, eyni zamanda cari vəziyyətə uyğun olaraq, yeni Repatriasiya Proqramı işlənib hazırlanmışdır.

Qaçqınlar və məcburi köçkünlər üzrə statistik məlumat bazasının təkmilləşdirilməsi istiqamətində onların həyat səviyyəsinin müntəzəm öyrənilməsi məqsədilə illik sorğular aparılacaqdır. Eyni zamanda, məcburi olan köçkün əhaliyə dair rəsmi demoqrafik və sosial-iqtisadi göstəricilərin toplanılması və monitorinqi prosesinin təkmilləşdirilməsi məqsədilə müvafiq təşkilatların potensialı gücləndiriləcəkdir.[6]

“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5 prioritet istiqamətdən dördüncüsü “İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış”dır və bu heç də təsadüfi bir məsələ deyildir.

AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Akif Musayevin də qeyd etdiyi kimi, “Azərbaycanın əsas hədəflərindən biri də işğaldan azad olunmuş ərazilərdə məcburi köçkünlərin effektiv məskunlaşması, 30 ilə yaxın müddətdə yurd-yuvalarından ayrı düşmüş insanların oraya qaytarılması və yerləşdirilməsidir. Bu məqsədlə ölkə başçısının tapşırığı ilə tədqiqat işlərinin aparılması ilə bağlı xüsusi komissiya və tədqiqat qrupu yaradılmışdır. Bu gün məcburi köçkün statusu olan 617 min əhali və 169 min ailə var. Seçmə yolu ilə 1100 köçkün arasında aparılmış birbaşa sorğular göstərir ki, əhalinin böyük əksəriyyəti həmin ərazilərə qayıtmaq əzmindədir. Qayıdışdan sonra birinci məsələ məcburi köçkünlərin istəyi ilə əlaqədar olaraq məskunlaşma yeri ilə,ikinci məsələ isə məşğulluq ilə bağlıdır.Qayıdışdan sonra əhalinin məşğulluq istəyi ilə bağlı sorğunun nəticəsinə əsasən “istənilən sektorda işləyərəm” deyənlər 15%, “ticarətdə və ictimai iaşə sahələrində” – 11%, “təhsil, səhiyyə və mədəniyyət sahələrində” – 11 %, “nəqliyyat və rabitə sahələrində” – 5%, “tikintidə” – 7%, “sənayedə” – 3 %, “kənd təsərrüfatı sahəsində işləyərəm” deyənlər isə 27% təşkil edir ”[7. s,32-33].

Məcburi köçkünlərlə əlaqədar reallaşdırılan dövlət siyasətinin müvafiq istiqamətlərində təkmilləşdirmə işləri həyata keçirilir. Bu, həm onların sosial problemlərinin daha tez və qanunauyğun formada həllinə, həm də neqativ halların aradan qaldırılmasına, sosial ədalətin təmin olunmasına xidmət edir.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi köçkünlərin İşləri üzrə Dövlət Komitəsində bir çox xarici dövlətlərin, beynəlxalq təşkilatların,diplomatik korpusların və KİV nümayəndələri ilə 2021-ci il ərzində müxtəlif görüşlər olmuşdur.

Görüşlər zamanı qonaqlara son otuz ildə Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanın qarşı-qarşıya qaldığı məcburi köçkünlük problemi, bu problemin həlli ilə əlaqədar görülən

işlər, işğaldan azad olunmuş ərazilərdəki mövcud vəziyyət, məcburi köçkünlərin öz yurdlarına qayıdışına hazırlıq barədə məlumatlar verilmişdir.

Hesabat dövründə məcburi köçkün problemi və onların sosial məsələlərinin həlli ilə bağlı həyata keçirilən dövlət siyasətinin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində də bir çox işlər reallaşdırılmışdır.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə 2021-ci il üzrə qarşıda duran tapşırıqların icrası üçün 380339.4 min manat vəsait ayrılmışdır.Bu vəsaitdən 327687.5 min manat məcburi köçkünlərə vahid aylıq müavinətin ödənilməsinə xərclənmişdir. 2021-ci ildə Komitənin işçi heyətinə əməkhaqqı və digər ödənişlər üçün smetada 4363.2 min manat nəzərdə tutulmuşdur.

Bu müavinətin ödənildiyi məcburi köçkünlərin orta aylıq sayı 480974 nəfər təşkil etmişdir ki, bunlardan orta hesabla 420297 nəfər aylıq - 60 manat olmaqla, 302613.8 min manat məbləğində, eləcə də 60677 nəfər isə aylıq - 33 manat olmaqla vəsaitlə təmin edilmişdir [8].

Məcburi köçkünlük problemlərinin həllinə beynəlxalq təşkilatlar da kifayət qədər dəstək göstərməyə davam edirlər.Buna misal olaraq, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Dünya Bankı əməkdaşlığını qeyd edə bilərik.Bu əməkdaşlıq çərçivəsində “Azərbaycanda bərpa və sülh quruculuğu üçün tədqiqat, təhlil və potensialın gücləndirilməsi” adlı qrant layihəsi həyata keçirilir.Layihənin keçirilməsinin əsas məqsədi Dünya Bankı tərəfindən gəlir gətirən proqramların hazırlanmasından ibarətdir.

Azərbaycan və Dünya Bankı əməkdaşlığının genişləndirilməsi repatriasiya prosesinə və məcburi köçkünlərin öz yurdlarında məşğulluq imkanlarının artmasına müsbət təsirini göstərəcək.

Bərpa-quruculuq işlərinin və repatriasiyanın təşkili ilə əlaqədar olaraq prezident İlham Əliyevin sərəncamına əsasən Qərargah yaradılmışdır.

Qanunvericiliyə uyğun olaraq, repatriasiyadan sonra məcburi köçkünlərin sosial müdaifəsi üzrə dövlət dəstəyi 3 il müddətinə qədər davam etdiriləcək. Böyük Qayıdış prosesi tamamlandıqdan sonra bu istiqamətdə yeni qərarlar verilə,mövcud qərarlar da dəyişilə bilər.

## *Nəticə*

Azərbaycanda məcburi köçkünlərlə bağlı dövlət siyasətinin əsasını ulu öndər Heydər Əliyev qoymuş və bu mühüm problemin həlli üçün strategiya müəyyənləşdirmişdir. Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması və digər problemlərinin həlli məsələləri isə Prezident İlham Əliyevin fəaliyyətində öz aktuallığını qoruyub saxlamağa davam etdi. Onun rəhbərliyi ilə bu istiqamətlərdə mühüm tədbirlər həyata keçirilmişdir.Bu tədbirlər isə,öz növbəsində indiki dövrə qədər 300 mindən çox məcburi köçkünün mənzil şəraitinin yaxşılaşdırılmasına şərait yaratmışdır.

Məcburi köçkünlərlə əlaqədar olaraq həyata keçirilən dövlət siyasətində bir sıra istiqamətlər üzrə təkmilləşdirmə prosesləri baş verməkdədir.Bu, məcburi köçkünlərin sosial problemlərinin sürətli və qanunauyğun şəkildə həllinə kömək edir. Həyata keçirilən uğurlu sosial siyasət nəticəsində bütün çadır şəhərcikləri də ləğv olunmuşdur.

Məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir və bu yönümdə uğurlu nəticələrin əldə olunduğunu çoxsaylı faktlar da təsdiqləyir. Atılan uğurlu addımların nəticəsi olaraq, məcburi köçkünlər arasında yoxsulluq səviyyəsi sürətlə azalmışdır. Belə ki, məcburi köçkünlər arasında yoxsulluq həddində son illərdə 75 faizdən 12 faizədək azalma müşahidə olunmuşdur.

Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu, Sahibkarlığa Kömək Milli Fondu və digər təşkilatlar tərəfindən yeni salınmış qəsəbələrin olduğu bölgələrdə sıxlıqla kredit layihələri reallaşdırılır. Bu da öz növbəsində məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşmasına şərait yaradır.

Qeyd etmək lazımdır ki, məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması,eləcə də onların mənzil-məişət problemlərinin həll edilməsi, ümumilikdə sosial qayğılarla təmin edilməsi ilə bağlı həyata keçirilən davamlı tədbirlərin həcmi son illər daha geniş vüsət almış və əsasən yeni

sahələri əks etməkdədir. Azərbaycanın bu sahə ilə əlaqədar olaraq həyata keçirilən siyasətinin əsas istiqamətlərindən biri də məcburi köçkünlərin məşğulluğunun təmin edilməsindən, onların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına dövlət dəstəyinin gücləndirilməsindən ibarətdir.

Dünyanın müəyyən ölkələrində məcburi köçkünlərin repatriasiyasından sonra onlara iş imkanları tapmağa kömək edən onlayn şəbəkə təcrübəsi mövcuddur.

Belə ki,bu şəbəkə boş iş yerləri, təqaüdlər, təhsil, investisiya imkanları,hüquqi məsləhət və mənzil yardımı haqqında məlumatları paylaşır. Platforma həmçinin yaşayış şəraitini izah edən bələdçi təqdim edirBununla yanaşı,onlayn şəbəkə üzvlərinə psixoloji dəstək verməyə çalışır.Bu təcrübəni müəyyən düzəlişlər etmək şərtilə Qarabağda tətbiq etmək çox səmərəli ola bilər.

Hələ 2010-cu ildə görkəmli iqtisadçı alimlər N.Müzəffərli və E.İsmayılovun "Azərbaycanın post-konflikt ərazilərinin bərpası (konseptual əsaslar)" adlı kitabında aparılan təhlillər deməyə əsas verir ki,məcburi köçkünlərin öz yurdlarına geri qayıtması üçün doğru tədbirləri doğru zamanda həyata keçirmək lazımdır. Bu tədbirlərdən ən önəmlisi son dövrlərin ən sevindirici xəbərlərindən biri olan Şərqi-Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilana artıq başlanılan qayıdışla bağlıdır. Məlum olduğu kimi, burada ölkədə ilk dəfə müasir texnologiyalara əsaslanan yeni həyat tərzi - "ağıllı kənd" layihəsi icra olunub. Burada 40 ikimərtəbəli, 160 birmərtəbəli ev tikilmişdir.

Və nəhayət 2022-ci il 19 iyulda Zəngilan rayonunun Ağalı kəndinə məcburi köçkün əhalinin köçürülməsinin birinci mərhələsi yekunlaşıb. Mövcud məlumatlara əsasən, yaxın vaxtlarda Zəngilan rayonunda yeni salınmış Ağalı kəndinə indiyədək 201 nəfərdən ibarət 41 ailə köçürülüb.Bu ailələr müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayan ailələr arasından seçilmişdir. Köçürülən ailələr arasında 1-ci, 2-ci və 3-cü Ağalı kəndlərinin sakinləri də vardır. Layihə çərçivəsində innovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 ekoloji evin tikintisi başa çatıb, daha 150 evin, o cümlədən ikimərtəbəli,üçmərtəbəli mənzil tipli evlərin tikilməsi davam etdirilir.

Bildiyimiz kimi,2022-ci ildə dövlət büdcəsindən əlavə olaraq 470 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Bu da öz növbəsində Qarabağda yeni iş yerlərinin yaradılmasına səbəb olacaqdır. Yeni iş yerlərinin yaradılması və mikrokreditlərin verilməsi isə məcburi köçkünlərin məşğulluq imkanlarının artmasına təkan verəcəkdir.

## ƏDƏBİYYAT


1. "Səs". - 2018. -14 noyabr. - № 215. -s.11.
2. "Şərq". - 2012. - 11 yanvar. - s.11.
3. Improving the implementation of national internally displaced persons laws and policies. Dr. Phil Orchard,University of Wollongong 15 P.
4. http://sfdi.gov.az/news/63
5. https://www.yeniazerbaycan.com/Siyaset_e6552_az.html
6. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Bakı şəhəri, 15 sentyabr 2008-ci il № 3043. https://e-qanun.az/framework/15399
7. Musayev A. İşğaldan azad olunmuş ərazilərin bərpası: mövcud vəziyyəti və effektiv məskunlaşdırma, məqalə.Mingəçevir 10-11 dekabr 2021
8. Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2021-ci il ərzində görülmüş işlər barədə hesabat http://idp.gov.az/az/law/134/parent/15
9. Müzəffərli N, İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası:konseptual əsaslar. Bakı, "Qafqaz" nəşriyyat evi, 2010. – 270 s

*Сабина Хабиб гызы Байрамова*
*младший научный сотрудник «Научного центра по восстановлению постконфликтных территорий» Института Экономики НАНА*

## Правовые и организачионные основы улучшения социалъно-экономического положения вынужденных переселенцев государством

***Резюме***

**Цель исследования:** Изучить роль государства в развитии социально-экономического положения беженцев и вынужденных переселенцев. В статье рассматриваются вопросы повышения социально-экономического положения и занятости беженцев и вынужденных переселенцев, проанализирована политика, проводимая государством в указанном направлении, проделанная работа и достигнутые результаты.

**Методология исследования:** В работе использовались методы анализа, наблюдения и описания.

**Практическая значимость исследования:** Реализация мер, связанных с защитой прав беженцев и вынужденных переселенцев, и более эффективное решение их экономических и социальных проблем.

**Результаты исследования:** Связаны с тем, какое значение в государственной политике имеет работа, проводимая в направлении улучшения социально-экономического положения вынужденных переселенцев.

**Оригинальность и научная новизна исследования :** В статье выявлены факторы, влияющие на улучшение социально-экономического положения беженцев и вынужденных переселенцев.

***Ключевые слова: беженцы и вынужденные переселенцы, трудоустройство, социальный статус, государственная программа.***

***Sabina Habib Bayramova***
***junior researcher "Scientific Center for Recovery post-conflict territories" Institute of Economics of ANAS***

## Legal and organizational bases for improving the socio-economic situation of internally displaced persons by the state

***Summary***

**Purpose of the study:** To study the role of the state in the development of the socio-economic situation of refugees and internally displaced persons. The article discusses the issues of improving the socio-economic status and employment of refugees and internally displaced persons, analyzes the policy pursued by the state in this direction, the work done and the results achieved.

**Research methodology:** The methods of analysis, observation and description were used in the work.

**Practical significance of the study:** Implementation of measures related to the protection of the rights of refugees and internally displaced persons, and a more effective solution of their economic and social problems.

**Results of the study:** Related to the importance in the state policy of the work carried out in the direction of improving the socio-economic situation of internally displaced persons.

**Originality and scientific novelty of the research:** The article reveals the factors influencing the improvement of the socio-economic situation of refugees and internally displaced persons.

***Key words: refugees and internally displaced persons, employment, social status, state program.***